

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

8 dekabr 2022-ci il
cümə axşamı

1933-cü ildən çıxır
№ 48 (3611)

# İKİ DÖVLƏT, BİR MİLLƏT, BİR ORDU



Şərti adı "Qardaş yumruğu" olan hərbi təlimlər keçirilmə yerinə və zamanına görə dərhal müxtəlif hərbi-siyasi mülahizələrə yol açdı.

Əslində, bu yaxınlarda Arazın o tayından bu tayına panton körpülərlə hərbi məqsədlə yol açmağı məşq edənlər olmasaydı, nə bu təlimlərə, nə də mülahizələrə heç gərək qalmazdı. Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən bu təlimlə rəsmi Bakı göstərir ki, çayı o cür keçməzlər, belə keçərlər... Kim istəyirsə buna sırf hərbi-metodiki vəsait kimi baxsın. Yox, əgər Qüdsə gedən yolun Bakıdan keçdiyinə doğrudan da inananlar varsa, onda "Qardaş yumruğu"nu anladıqları dildən cavab kimi də qəbul edə bilərlər.

Azərbaycan və Türkiyənin dünyada örnəyi olmayan qardaşlıq münasibətləri ötən ilin yayında dövlət başçılarının imzaladıqları Şuşa Bəyannaməsi ilə rəsmi müttəfiqlik müstəvisinə də qədəm qoydu. Elə o mərasimdə Prezident İlham Əliyev bu sənədin Naxçıvanın itirilməsinin qarşısını alan Qars müqaviləsi kimi mühüm olduğuna diqqət çəkmişdi və zaman göstərdi ki, dövlət başçısı təhdidlərin haradan gələcəyini vaxtında hesablayıb.





Budur, qardaşların dəmir yumruğu bu gün bizə barmaq silkələyən istənilən qüvvəyə qarşı düyünlənə biləcəyini bir daha dosta da, düşmənə də bəyan elədi. Dünya gördü ki, Şuşa bəyannaməsi iki dövlət, bir millət, bir ordu konsepsiyası ortaya qoyub və anti-Türkiyə, anti-Azərbaycan demarşlarına heç bir halda dözüm sərgilənməyəcək. Yəni Xudafərini dostluq körpüsü, Zəngəzur dəhlizini isə, hətta, Ermənistanın da maraqlarına cavab verən layihə olduğunu dilə gətirən Azərbaycan Prezidentinin bütün xoşməramlı diplomatik jestlərinə Araz üzərindən hərbi pontonlarla cavab vermək cürəti beləcə, suya düşdü, çayda batdı...

Bu birgə təlimdən Ermənistan da öz "payını" alıb, ya da almalıdır.

Vətən müharibəsində darmadağın olan ordusunun olan-qalanını xilas etmək üçün kapitulyasiya aktını imzalamağa məcbur qalan erməni hökumətinin yeni ordu yaratmaq cəhdləri uzun müddət vaxt aparacaq. Ekspertlər bunun 10-20 il ərzində mümkün ola biləcəyini söyləyirlər. Deməli, bu gün Azərbaycan təkbaşına belə hələ sülh müqaviləsinə imza atmamış Ermənistanın təxribatlarının qarşısını aldığı kimi, bundan sonra da onu əməlinə görə peşiman edə bilər. Görünür, Ermənistan rəhbərliyi də bunun fərqindədir və necə deyərlər, ilanı seyid Əhməd əli ilə tutmaq üçün indi İranın ətəyindən yapışıb. Bu, bizi qorxutdumu? Birgə hərbi təlim göstərdi ki, əsla!

Təlimin taktiki-texniki xüsusiyyətlərinə gəlincə, Bakı şəhərini, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə edən birgə hərbi məşqlərdə əsas diqqət qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəlmişdi.

Təlimin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə dövlət başçıları telefon zəngi ilə şəxsi heyəti təbrik ediblər. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev "Qardaş yumruğu" təliminin Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu qeyd edib, birliyimizin sarsılmaz və əbədi olduğunu vurğulayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə "Bir millət, iki dövlət" anlayışı ilə keçirilən təlimin uğurla həyata keçirildiyini bildirib və birliyimizin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdıraraq bütün şəxsi heyəti təbrik edib.

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.***

***Ölkəmizin rəhbəri dekabrın 5-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı dekabrın 7-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 7-də "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak edib.***

## DAĞISTAN RƏHBƏRİNDƏN İLHAM ƏLİYEVƏ TARİXİ HƏDİYYƏ

Prezident İlham Əliyev dekabrın 6-da Rusiyanın Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə uğurlu əməkdaşlığı həyata keçirdiyini bildirib və bunun Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini deyib. Dövlət başçısı, eyni zamanda, bildirib ki, Azərbaycan-Rusiya əlaqələri 2022-ci ildə də uğurla inkişaf edib. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və səmərəli görüşlərin əhəmiyyətini, eyni zamanda, bu yaxınlarda keçirilən növbəti Azərbaycan-Rusiya regionlararası Forumunun önəmini qeyd edib.

Dövlət başçısı əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələrin mövcud olduğunu vurğulayaraq müasir dövrdə də bu münasibətlərin möhkəmləndiyini məmnunluqla diqqətə çatdırıb. Bu baxımdan Prezident İlham Əliyev Sergey Məlikovun ölkəmizə səfərinin Azərbaycanla Dağıstan arasında konkret istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirib.

Xalqlarımızın qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən Sergey Məlikov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını məmnunluqla qeyd edib. O, ölkəmizə səfəri zamanı keçiriləcək görüşlərin əməkdaşlığın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirib.

Dövlət başçısı Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Dağıstan Respublikasının rəhbərinin müşaviri Maqomed Səidoviç Qurbanova təltif olunduğu "Şöhrət" ordenini təqdim edib.

Sonra xatirə şəkilləri çəkdirilib.

Daha sonra Azərbaycan Prezidentinə görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin vaxtilə iş otağında olan heykəltəraşlıq əsəri təqdim edilib.

Qeyd edək ki, Əziz Əliyev 1942-1948-ci illərdə Dağıstana rəhbərliyi dövründə digər Qafqaz xalqları kimi, Dağıstan xalqına qarşı da nəzərdə tutulmuş sürgünün qarşısını almışdı. Buna görə Dağıstan ağsaqqalları adından ona tərkində uşaq olan atlının əks olunduğu heykəltəraşlıq əsəri hədiyyə edilib. Bu əsər bundan sonra Prezident İlham Əliyevin iş otağında olacaq.

## VƏTƏNDAŞ QƏBULU

Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı



***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il dekabr ayının 17-də Xaçmaz Rayon Polis Şöbəsinin inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 16.12.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

# O, XALQIN VƏ DÖVLƏTİN XİLASKARIDIR

## Azərbaycançılıq ideologiyası bizi birləşdirən dəyərdir

Ulu öndər Heydər Əliyev xalqımızın iftixarı, güvənc yeri və qürur duyduğu ən böyük azərbaycanlıdır. Onun Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması, heç də təsadüfi deyil.

Azadlığımızı, müstəqil dövlətçiliyimizi itirmək təhlükəsilə üzləşdiyimiz ağır günlərdə səsimizə səs verib həyatını təhlükəyə ataraq o canından, hətta övladlarından belə çox sevdiyi Vətənini, xalqını məhv olmaqdan xilas etmək üçün çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. Bu, sözün əsl mənasında, «ömrümün qalan hissəsini də xalqıma bağışlayıram»,- deyib, meydana atılan Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi.

Daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi.

Ulu öndərin 2003-cü ildə tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Zaman Heydər Əliyevin bu inamını təsdiq etdi.



Bu gün şanlı tariximizin yeni səhifələri yazılır. Bu yeni salnamənin parlaq səhifəsi isə 44 günlük Vətən müharibəsindəki böyük zəfərin gətirdiyi müasir reallıqlardır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, cənab İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi xəttin nəticəsi olaraq güclü Azərbaycan dövləti bir daha öz qüdrətini dünyaya nümayiş etdirərək beynəlxalq təşkilatların illərlə çözə bilmədiyi məsələni "Dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə reallığa çevirdi. Bu, Ata vəsiyyətinin yerinə yetirilməsi vədinə sadiqliyinin bariz təcəssümüdür.

Ulu öndər 19 ildir ki, cismən aramızda olmasa da, ölkəmizi işıqlı sabahlara aparan bəşəri ideyaları ilə xalqımızın qəlbində əbədi yaşayır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan etməsi haqqında xüsusi bir Sərəncam imzalaması bu dahi şəxsiyyətin dünya tarixindəki yeri və mövqeyinə, müstəqil dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərinə dövlət səviyyəsində göstərilən yüksək münasibətin, verilmiş böyük qiymətin əməli ifadəsidir.

Qeyd edək ki, 2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli liderinin anadan olmasının 100-cü ildönümüdür.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

## Ən fəal dövlət orqanı




Bu günlərdə Onlayn İctimai Nəzarət Platforması layihəsinin rüblük (sentyabr – noyabr ayları üzrə) yekunlarına dair dəyirmi masa keçirilib.

Dövlət qurumlarının, QHT-lərin və mətbuatın iştirakı ilə keçirilən dəyirmi masada 2022-ci ilin sentyabr–noyabr ayları ərzində Platformaya daxil olmuş müraciətlər, onların icra vəziyyəti və digər məsələlər müzakirə edilib.

Rübün nəticələrinə görə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, o cümlədən DİN-in Baş Dövlət Yol Polisi İdarəsi və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi vətəndaşların müraciətlərinə baxılması və bu müraciətlərdə qeyd olunan problemlərin həllinə görə "Ən fəal dövlət orqanı" mükafatına layiq görülüblər.

*"Polis"*

## Bizə yazırlar...



"Bu günlərdə yolda başıma gələn hadisə məndə polisə olan etimadı, rəğbəti daha da artırdı. Məhz buna görə də bu təşəkkür məktubunu yazmağı özümə borc bildim. Ailəliklə ata evimizdən qayıdırdıq. Birdən yoldaşımın halı pisləşdi və müvazinətini saxlaya bilməyib yıxıldı. O, epilepsiya xəstəliyindən əziyyət çəkdiyindən belə halla arabir üzləşirik. Amma, bu dəfə, küçədə, axşam saatlarında, azyaşlı oğlumun da yanımızda olduğuna görə çox təlaşlandım. Elə bu zaman oradan keçən Post-Patrul Xidməti Bölüyünün əməkdaşları bizi görüb maşını saxladılar. Bir sözlə, ən çətin anımızda polis köməyimizə çatdı". Bu fikirlər Asim Kərimovun DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Balakən rayon Qullar kənd sakini Elza Nastakalova yazır: "Mən bir ölkə vətəndaşı və bir ana olaraq Azərbaycan Polisi ilə qürur duyuram. Müraciətlərə həssaslıqla yanaşılması hər birimizdə məmnunluq yaradır ki, bu da polis-vətəndaş münasibətlərinin günü-gündən yaxşılaşmasına səbəb olur. Problemimlə bağlı müraciətinə operativ və obyektiv münasibət məndə Azərbaycan Polisi haqqında müsbət fikrin formalaşmasına zəmin yaratdı".

İsmayıl İsmayılov isə içərisində pul və sənədlərinin olduğu əl çantasının itməsi ilə bağlı müraciətinə operativ şəkildə baxılaraq tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Elvin Basqallı bank kartını itirməsi ilə bağlı müraciətinə dərhal baxılmasını yüksək dəyərləndirir: "Bank kartımı itirmişdim, "102" Xidməti-Zəng Mərkəzinə məlumat verdim. Yasamal RPİ 26-cı Polis Bölməsinin əməkdaşlarının gərgin səyi sayəsində kartım tez bir zamanda tapılıb mənə təhvil verildi".

İlahə Əhmədova idarə etdiyi avtomobillə yol-nəqliyyat hadisəsi törətdiyi zaman köməyinə yetişən Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarının xidmətindən məmnunluq hissi ilə yazır.

Çingiz Məmmədtağıyev isə probleminin həllində göstərdikləri köməkliyə görə Suraxanı RPİ 32-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

İlhamə Vəliyeva şikayətinə tez bir zamanda baxılaraq ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Sabunçu RPİ 13-cü Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

*Aytəkin Nəcəfova*

## Yol Polisi maarifləndirir

**Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları Bakı Slavyan Universitetində tələbələrlə maarifləndirici görüş keçiriblər.**

Universitetin pedaqoji heyətinin və tələbələrin iştirakı ilə baş tutan tədbirdə Bakı şəhər DYPİ-nin Hərəkətin təşkilinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin rəisi vəzifəsini müvəqqəti icra edən, polis mayoru Araz Əsgərli mövzu ilə bağlı ətraflı çıxış edib.

Yol hərəkət qaydalarının tələblərinə əməl etməməyin ağır yol-nəqliyyat hadisələrinin əsas səbəbi olduğunu vurğulayan həmkarımız ötən ilin statistik nəticələrinə nəzər salıb. Qeyd edib ki, 2021-ci ildə yol-nəqliyyat hadisələrində 7 yaşa qədər 13, 7-16 yaş aralığında 36, 18-20 yaş arasında 17, 21-24 yaş aralığında 38, 25-64 yaş aralığında 510, 65 yaşdan yuxarı isə 84 nəfər ölüb. Yol hərəkət qaydasının pozulması nəticəsində həyatla vidalaşanların sayına diqqət çəkən A.Əsgərli tələbələrə yolda hərəkətdə olarkən diqqətli olmağı tövsiyə edib. Eyni zamanda yol polisinin keçirdiyi maarifləndirici tədbirlərdə cəmiyyətin savadlı kəsimi olan tələbələrin yaxından iştirak etməsi ilə hadisələrin sayının minimuma endirilməsinin mümkünlüyünü bildirib.

Diskussiya şəraitində keçirilən





görüşdə iştirakçıların sualları cavablandırılıb.

*****

**Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı növbəti tədbir 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə 266 nömrəli tam orta məktəbdə baş tutub.** Tədbir çərçivəsində "Uşaqlar yol hərəkəti qaydalarını necə öyrənib?" mövzusunda intellektual yarış keçirilib.

Yarış yol hərəkəti təhlükəsizliyinin öyrədilməsi, yol hərəkəti iştirakçılarının, xüsusən uşaqların yeni biliklər əldə etməsi məqsədi daşıyıb.

Tədbirdə Azərbaycan Milli Avtomobil Klubunun layihə meneceri Həsən Xıdırov, 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin əməkdaşları, müəllim heyəti, valideynlər, həm də Bakı şəhəri Dövlət Yol Polisi İdarəsinin əməkdaşları, polis baş leytenantı Pərvanə Muradova və polis leytenantı Rüstəm Əhmədli münsiflər heyəti qismində iştirak edib.

İbtidai sinifin şagirdlərindən təşkil olunmuş 4 komanda arasında keçirilən yarışda uşaqların yol hərəkəti qaydaları ilə bağlı nəzəri bilikləri ekranda əks olunan suallarla yoxlanılıb. Tədbirin sonunda qaliblər mükafatlandırılıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## Ayıq-sayıq xidmət nəticəsində...




Binəqədi Rayon Mühafizə İdarəsi canlı qüvvə və texniki vasitələrlə mühafizə olunan obyektlərin təhlükəsizliyini, eləcə də təhkim olunmuş ərazidə ictimai asayişi etibarlı şəkildə qoruyur desək, yanılmarıq. Belə ki, dekabrın 1-də axşam saat 22:00 radələrində RMİ-nin əməkdaşları– tutucu qrupun heyət başçısı, polis serjantı Şəhriyar Nəbiyev və sürücü, polis serjantı Cavid Əmrahov təhkim olunmuş ərazidə nəzarəti həyata keçirən zaman iki naməlum şəxsin Bakı-Sumqayıt şossesində yerləşən "SOCAR" yanacaqdoldurma məntəqəsinin yaxınlığındakı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus yerüstü piyada keçidinin metal dekorativ borularını kəsdiyini müşahidə ediblər. Polis serjantı Ş.Nəbiyev: "Piyada keçidinin çıxışında dayanmış "AZSAMAND" markalı avtomobil, eyni zamanda keçidin Azərbaycan Bayrağı ilə bəzədilmiş dekor hissəsinin sınıq olması diqqətimizi cəlb etdi. Özünü şübhəli aparan sürücüdən nə etdiklərini soruşanda həyəcanla: "Heç eləbelə işim var, adam gözləyirəm",-dedi. Avtomobilin yük yerindəki kəsilmiş dekor borular isə onların bura hansı məqsədlə gəldiklərini aşkara çıxardı..."

Oğurluğa cəhdin qarşısını alan əməkdaşlar hadisə barədə aidiyyəti üzrə RMİ-nin rəhbərliyinə məruzə edərək şübhəli şəxsləri Binəqədi RPİ-nin 6-cı Polis Bölməsinə təhvil veriblər.

İlkin araşdırma zamanı saxlanılan şəxslərin Füzuli rayon sakini Adəm Şükürov və Şirvan şəhər sakini Məhərrəm Səfərov olduqları müəyyən edilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Qapıları ədalətə açılan binalar








Azərbaycanda mövcud ictimai sabitliyin qorunub saxlanılmasında bir çox faktor önəmli rol oynayır ki, onlardan biri, bəlkə də elə birincisi, daxili işlər orqanlarının maddi-texniki təminatının yüksək səviyyədə öz həllini tapmasıdır. Ekspertlər ölkəmizdəki sürətli iqtisadi inkişafın və sosial rifahın ictimai təhlükəsizliyin etibarlı qorunmasından, həmçinin cinayətkarlığa qarşı mübarizənin kəsərindən birbaşa asılı olduğu qənaətini vaxtaşırı dilə gətirirlər. Deməli, daxili işlər orqanlarına dövlət başçısı səviyyəsində xüsusi diqqətin ayrılması ilə şəxsi heyətin xidmət şəraitinin davamlı olaraq yaxşılaşdırılması, dolayısıyla vətəndaşın da həyat şəraitinin yüksəlməsinə gətirib çıxarır. Başqa sözlə, effektli xidmət üçün lazımi şəraitin yaradılması təhlükəsizliyi, bu isə sosial-iqtisadi inkişafı stimullaşdırır.

Yeni polis idarələrinin, şöbə və bölmələrinin, hərbi şəhərciklərin tikilib istifadəyə verilməsi, əsaslı və cari təmir işlərinin aparılması ilə DİN-in Maddi-Texniki Təminat Baş İdarəsi bu mənada olduqca əhəmiyyətli vəzifə icra edir, ən müasir tələblər səviyyəsində quruculuq-abadlıq işləri həyata keçirir. Özünəməxsus, çağdaş memarlıq üslubunda nümunələr yaradan Baş İdarə, obrazlı ifadə ilə desək, qapıları ədalətə açılan binalar inşa edir. İstifadəyə verilən idarələrin, şöbələrin, bölmələrin inzibati binaları, sahə məntəqələri, Daxili Qoşunların hərbi şəhərcikləri bütün zəruri kommunikasiyalarla təchiz edilir, xidməti otaqlar inventarlarla təmin olunur, mühəndis təminatı işləri görülür, ərazidə abadlaşdırma və yaşıllaşdırma işləri həyata keçirilir.

Şəxsi heyətin xidmət şəraitinin bu səviyyədə yaxşılaşdırılması özünü ən bariz formada cinayətkarlığa qarşı mübarizənin rüblük və illik statistikalarında əks etdirir – cinayətlər əvvəlki dövrlərlə nisbətdə azalır.

Statistikadan söz düşmüşkən, DİN Maddi-Texniki Təminat Baş İdarəsinin sifarişi ilə ötən il ərzində icra olunmuş tikinti fəaliyyətinə nəzər salsaq, işin miqyasını dolğun təsəvvür etmək imkanımız yaranar. Bakıxanov qəsəbəsindəki DİN-in Daxili Qoşunlarının N saylı hərbi hissəsinin ərazisində 5 mərtəbəli qərargah və əsgər yataqxanasını, həmçinin digər köməkçi bina və qurğuları, Ağcabədi rayonundakı yeni hərbi şəhərciyi ilk olaraq yada salmalıyıq. Bu, Vətən müharibəsindən qalib ordu mənsubu kimi ayrılmış hərbçilərimizin xidməti vəzifələrini daha yaxşı şəraitdə yerinə yetirmələrinə müharibədən sonra töhfə sayılmalıdır.

Eləcə də DİN-in Baş DYPİ Qeydiyyat İmtahan İdarəsi üçün inzibati binanın, Gəncə Regional Qeydiyyat-İmtahan və Texniki Baxış şöbəsinin Təcrübi imtahan avtodromunun, DİN-in Baş İnformasiya-Kommunikasiya İdarəsinin Texniki təmir mərkəzinin anbarının və yardımçı binanın tikintisinin, Bakı şəhər BPİ DYPİ-nin inzibati binasının fasadının üzlənməsi, yardımçı tikililərin inşasının tamamlanması ötən ilin uğuruna yazılıb. Saray Polis Bölməsi, Yevlax Rayon Polis Şöbəsinin sahə məntəqəsinin və Qubadlı Rayon Polis Şöbəsi üçün Sumqayıt şəhəri yaxınlığında yeni inzibati binaların inşası da Baş İdarənin fəaliyyətinə güzgü tutur.

Bundan başqa, ötən il Maddi-Texniki Təminat Baş İdarəsinin Mərkəzi Bazasında yeməkxana, anbar, nəzarət buraxılış məntəqəsi və 2 ədəd su anbarının tikintisi başa çatdırıldı. Səbail RPİ-nin 9-cu Polis Bölməsi yerləşən köhnə xidməti sahənin yeməkxana, Gədəbəy RPŞ-nin Yeni Saratovka Polis Bölməsinin və Binəqədi RPİ-nin köhnə binasında əsaslı tikinti və təmir işləri tamamlandı.

Bu tikinti-təmir fəaliyyətinin içində Qarabağda aparılan quruculuq işi xüsusilə diqqət çəkir. Çünki işğaldan azad edilmiş ərazilərlə bağlı həm xəyallarımız gerçəkləşir, həm də bir növ, Böyük Qayıdışın təməllərinin atılmasında DİN-in Maddi-Texniki Təminat Baş İdarəsi də iştirak edir. Şuşa şəhərində Daxili Qoşunlarının 2 postunun, 2 mərtəbəli mühafizə binasının, Kəlbəcər rayonunda Polis Şöbəsinin xidməti binasının əsaslı təmiri əməkdaşlarımıza o torpaqlarda yenidən ədalətin, hüququn, qanunun təmsilçiliyini etməyə imkan verəcək. Şuşa, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Zəngilan Rayon Polis şöbələrinin işğaldan azad edilmiş rayonlarda müvəqqəti yerləşdirilməsi üçün aparılan cari təmir işləri də bu amala xidmət edir.

Ümumiyyətlə, Baş İdarədən qəzetimizə daxil olan məlumatda bildirilir ki, işğaldan azad edilmiş ərazilərdə 2021-2025-ci illərdə Daxili İşlər Nazirliyinə aid yeni infrastruktur obyektlərin tikintisi ilə əlaqədar hazırlanmış məlumatlar planlaşdırma üçün aidiyyəti dövlət qurumlarına təqdim edilib. Bu sahədə qəbul edilmiş qərarlardan asılı olaraq investisiya layihələrinin icrası üzrə müvafiq tədbirlər görüləcək.

*Rəşad Mehtiyev*




# NARKOTİK HƏYATI MƏHV EDİR!

Mingəçevir Şəhər Polis Şöbəsinin təşkilatçılığı ilə 10 nömrəli tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Görüşdə çıxış edən ŞPŞ-nin rəisi, polis polkovniki Ədalət Əliyev başəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, milli-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu qeyd edib.

Tərtər rayon Yuxarı Sarıcalı kənd tam orta məktəbində baş tutan narkomaniya əleyhinə maarifləndirici tədbirdə polis əməkdaşları, pedaqoji heyət və yuxarı sinif şagirdləri iştirak ediblər.

RPŞ-nin rəisi, polis polkovniki Elçin Qasımov görüşün əsas məqsədinin gələcəyimiz olan yeniyetmələri yad təsirlərdən, zərərli vərdişlərdən qorumaq, eləcə də onların sağlam yaşamasını təmin etməkdən ibarət olduğunu bildirib. Həmçinin, narkomaniya ilə mübarizədə birgə səylərin vacibliyi də iştirakçıların diqqətinə çatdırılıb.

Daha bir maarifləndirmə görüşü Qax rayonunun Zəyəm kənd tam orta məktəbində keçirilib. "Narkomaniya əsrin bəlasıdır!" mövzusunda çıxış edən RPŞ



əməkdaşları qeyd edib ki, polis narkotiklərin qanunsuz dövriyyəsinə, narkomanlığa qarşı müasir, eləcə də effektiv mübarizə üsullarından istifadə etməklə genişmiqyaslı əməliyyat-axtarış və əməliyyat-istintaq tədbirləri həyata keçirir.

Antinarkotik təbliğatı çərçivəsində maarifləndirici görüşlər paytaxt rayonlarında da davam etdirilib.

Nizami Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 242 saylı tam orta məktəbdə baş tutan "Narkomaniya bəşəri fəlakətdir!" mövzusunda maarifləndirici görüşdə RPİ-nin rəisi, polis polkovniki Ziya Əliyev narkomaniyanın genefondumuza vurduğu zərərlərdən söz açıb. Vurğulayıb ki, gənclərimiz yüksək təhsil almalı, müasir informasiya texnologiyalarından istifadə etməyi bacarmalı, idmanla məşğul olmalı, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda böyüməli, cəmiyyətimiz üçün sağlam fərdə çevrilməlidirlər.

Anoloji tədbir Suraxanı rayon 172 və 270 saylı tam orta məktəblərdə də keçirilib.

RPİ-nin rəisi, polis polkovniki Süleyman Neymətov insanı cinayətkarlığa, zorakılığa sövq edən, sosial-iqtisadi inkişafı səngidən, ailələri dağıdan narkomaniyadan uzaq durmağı tövsiyə edib, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı ölkəmizdə aparılan mübarizədən, qəbul olunan dövlət proqramından danışıb.

Nəsimi rayon 247 saylı tam orta məktəbdə baş tutan "Azərbaycan gəncləri narkotikə yox deyir!" mövzusunda maarifləndirmə tədbirində çıxış edən RPİ-nin rəisi, polis polkovniki Mirnemət Mirbabayev ümumbəşəri bəla ilə mübarizədə hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşdüyünü, ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olmasının vacibliyini də diqqətə çatdırıb.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarxlar nümayiş etdirilib.

Qeyd edək ki, narkomaniya ilə mübarizə çərçivəsində anoloji tədbirlər Masallı, Lənkəran, Astara və Zərdab rayonlarındakı məktəblərdə də keçirilib.

*"Polis"*

# DƏLƏDUZ SAXLANILIB




Vətəndaş Zəminə Baxşəliyevanın etibarından sui-istifadə etməklə ona külli miqdarda maddi ziyan vuran şəxs Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırma zamanı məlum olub ki, zərərçəkmiş şəxsə qarşı dələduzluq əməli törədən və özünü Afət kimi təqdim edən Naxçıvan Muxtar Respublikasında doğulmuş, işləməyən, faktiki olaraq Binəqədi rayon 7-ci mikrorayonda kirayədə yaşayan Elvira İbrahimovadır. Onunla Zəminənin tanışlığı qızıl alqı-satqısı zamanı yaranıb. Belə ki, o, sözügedən mağazadan, xüsusən də Zəminədən bir neçə dəfə külli miqdarda qızıl-zinət əşyaları alıb. Beləcə "yağlı müştəri" kimi zərərçəkmişin etibarını qazanıb. Bir müddət sonra Elvira (Afət) sonuncu dəfə mağazaya gələrək Naxçıvandan imkanlı qohumlarının gəldiyini və bahalı qızıl-zinət əşyaları almaq istədiklərini, eləcə də qızıllara baxmaq üçün evdə onu gözlədiklərini bildirib. Aralarında razılaşdıqları formada E.İbrahimova ümumilikdə 30 min 200 manat dəyərində qızılları mağazadan götürüb və bir daha ona zəng çatmayıb. Vətəndaş Z.Baxşəliyeva dələduzluğa məruz qaldığını bilərək polisə müraciət edib.

Binəqədi RPİ tərəfindən saxlanılan şəxs dələduzluq əməli törətdiyini etiraf edib və Z.Baxşəliyevaya dəymiş maddi ziyanın ödətdirilməsi təmin olunub.

Təqsirləndirilən E.İbrahimova barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Onun Bakının digər rayonlarında da anoloji əməllər törətdiyi istisna edilmir.

*Teymur Əlizadə, polis mayoru*

# Polis serjantı qalib oldu

Bu günlərdə Tovuz rayon Gənclər və İdman idarəsinin və Azərbaycan Strongmen Federasiyasının təşkilatçılığı ilə Tovuzda regionlar arasında strongmen deadlift və strict curl güc idman növləri üzrə açıq çempionatı keçirilib.



Həmin yarışda Gəncə Şəhər Baş Polis İdarəsinin Xüsusi Təyinatlı Bölüyün polis serjantı Röyal Rəsulov deadlift hərəkəti üzrə 250 kiloqram qaldırmaqla yarışın qalibi olub.

*Ruslan Vəliyev*

# Polis generalının Qarabağ salnaməsi...

*Əvvəli ötən sayımızda.*

...Bu çağırışın məqsədi Azərbaycanı QMV-nin sərbəst, "müstəqil" bir dövlət olduğuna məcbur etmək idi.

Abdurəhman Vəzirovun İrəvana səfərini unuda bilmirəm. Orada o ermənilərə vəd etmişdi ki, Mixail Qorbaçova onların ehtiyacları barədə danışacaq. Bu nə demək idi?! Axı o bilməliydi ki, Qorbaçova Zori Balayan və Silva Kaputikyan bölgədə baş verənlərlə bağlı məlumat verir...

Nəticədə, erməni millətçilərini razı salmaq üçün Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti tərəfindən "1988-1995-ci illərdə QMV-nin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" bədnam qərar qəbul edildi. Və SSRİ-nin dağılma prosesi başladı! Kreml rəhbərləri bəlkə də heç təsəvvür etməzdilər ki, (hərgah bölgədə millətlərarası düşmənçiliyin ilk toxumlarını elə Kreml özü əkmişdi) Şahnəzərovun, Balayanın, Kaputikyanın "layihələri" sonradan necə dağıdıcı fəlakətə çevrilib, Qarabağı azərbaycanlıların qanına bələyəcək.

Yeri gəlmişkən, Vəzirovun əsas müşaviri Azərbaycan DİN-in birinci müavini, general V.Barannikovun Qarabağdakı qara əməlləri ayrıca bir araşdırma mövzusudur.

Təəssüflər olsun ki, Xankəndində baş verənlərə seyrci qalmadığımızı, hətta qanuni şəkildə güc tətbiq etdiyimizi görən və Azərbaycan əhalisinin Qarabağdan çıxarılması ilə məşğul olan xüsusi komitəyə başçılıq edən Sov.İKP MK nümayəndəsi Arkadi Volskinin tələbi ilə qərargahımızı Ağdama köçürdülər.




Çünki qarşısı alınmaz miqyas alan Qarabağ münaqişəsinin azərbaycanlı şahidləri oyundan kənar qalmalı idilər. Onlar bu istəklərinə də nail oldular və mən Bakıya geri çağırıldım. Səbəb kimi isə guya mənim Volskinlə "yola getməməyim" idi.

Bakıya qayıtdıqdan sonra 1988-ci ilin 13 dekabrında general Safonov mənə zəng edərək görüşməyi təklif etdi. Biz görüşdük. O, mənə Respublika rəhbərliyinin qəbulunda olarkən mənim Qarabağ probleminin həllinə birinci katibin məsuliyyətsiz yanaşması haqqında sözlərimin yuxarılarda necə hiddət doğurduğunu da dedi. Məni xoşagəlməz sürprizlər gözləyirdi.

Etibarlı mənbələrdən məlumat əldə etdim ki, Vəzirov məni guya nüfuzdan salmaq üçün material toplayır. Hətta ətrafındakılara deyirmiş ki, "Məmmədov Kamil bağışlanmayacaq. O, mənə qarşı getdi. Onu sadəcə DİN-dən işdən çıxarmaqla kifayətlənməyəcəm, lazım gəlsə həbs etdirəcəm"...

Mən oyunların qurbanı olmaq istəmədim və başa düşdüm ki, DİN-də bundan sonra mənim işləməyim mümkün deyil. İstefa barədə "rəhbərliyə" raportla müraciət etdim.

Təsəvvür edin, müharibənin odundan-alovundan keçmiş, tam gücü, enerjisi, biliyi, bacarığı ilə xalqına xidmət edən bir general bağ evinə köçüb həbsini və ya mümkün təxribatı gözləyir...









ПОСТАНОВЛЕНИЕ
ВЕРХОВНОГО СОВЕТА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

О СОЗДАНИИ ДЕПУТАТСКОЙ СЛЕДСТВЕННОЙ КОМИССИИ ДЛЯ ВЫЯСНЕНИЯ ОБСТОЯТЕЛЬСТВ ГЕНОЦИДА В НАГОРНОМ КАРАБАХЕ, В ТОМ ЧИСЛЕ В ХОДЖАЛЫ

Верховный Совет Азербайджанской Республики **постановляет**:

Для выяснения обстоятельств геноцида в Нагорном Карабахе, в том числе в Ходжалы, создать полномочную депутатскую следственную комиссию в следующем составе:

ПРЕДСЕДАТЕЛЬ КОМИССИИ

**И. Д. Ахундзаде** — народный депутат Азербайджанской Республики.

ЧЛЕНЫ КОМИССИИ

**Б. С. Захидов** — народный депутат Азербайджанской Республики.
**Ш. Г. Гаджикеримов** — народный депутат Азербайджанской Республики.
**Ш. Б. Гусейнов** — народный депутат Азербайджанской Республики.
**Т. Т. Рустамов** — народный депутат Азербайджанской Республики.
**Я. Т. Алиев** — народный депутат Азербайджанской Республики.
**Р. М. Фаталиев** — народный депутат Азербайджанской Республики.
**М. Д. Насиров** — народный депутат Азербайджанской Республики.
**М. А. Муталлимов** — народный депутат Азербайджанской Республики.
**С. П. Вердиев** — народный депутат Азербайджанской Республики.
**Д. К. Нуриев** — народный депутат Азербайджанской Республики.
**Ф. Н. Мамедов** — народный депутат Азербайджанской Республики.
**А. О. Омаров** — народный депутат Азербайджанской Республики.
**Р. М. Гюльмамедов** — народный депутат Азербайджанской Республики.
**К. А. Мамедов** — генерал-майор.
**Н. Г. Алиев** — заведующий Отделом секретариата Верховного Совета Азербайджанской Республики.

**Председатель Верховного Совета Азербайджанской Республики**
**Я. МАМЕДОВ.**

г. Баку, 25 марта 1992 г.

İşdən azad olunma haqqında əmri mən yalnız beş aydan sonra - 16 may 1989-cu ildə aldım. Çünki həmin müddətdə məni etibardan salan materialların axtarışı uğursuzluqla başa çatmışdı. DİN-də işlədiyim 30 il ərzində bir dəfə də olsun töhmət almamışam. Milis general-mayoru rütbəsini mən 1983-cü ildə SSRİ Nazirlər Şurasının qərarı ilə almışam. SSRİ DİN-in əmrinə əsasən "general xidməti formasını daşımaq hüququ ilə" işdən azad olunmuşam. Çəkdiyim zəhmət, Vətənə xidmətim Müzəffər Ali Baş Komandan tərəfindən "1-ci dərəcəli Vətənə xidmətə görə" ordeni ilə qiymətləndirilib (2011-ci ildə).

Təqaüdə göndərilsəm də Qarabağda xidmətlərimi dayandırmadım. 1992-ci ilin yanvarında Ağdam şəhərinə getdim. Şəhərin müdafiəsi üzrə DİN qərargahında fəaliyyətimi davam etdirdim.

Keşməkeşli həyatıma, çətin günlərdə xidmət etməyimə baxmayaraq, mən özümü xoşbəxt hesab edirəm. Xoşbəxtəm ki, Vətənimizin düşmənləri ilə mübarizə apararaq ilk günlərdən Qarabağın müdafiəsində dayanmışam. Xoşbəxtəm ki, yüz yaşın astanasında ordumuzun, xalqımızın və möhtərəm Prezidentimiz İlham Əliyevin böyük qələbəsinin şahidi olmuşam".

***KAMİL MƏMMƏDOV***
***polis general-mayoru***

***Sözardı:*** *Tanıdıqları, simsarları ona "sovet generalı" deyirlər. Düzlüyü, prinsipiallığı, qətiyyəti ilə çoxumuza örnək bir ömür yaşayır Kamil müəllim. Yaşının bu çağında hafizəsi yerində, qələmi əlindədir. Onu sevdirən isə həm də üryinin genişliyi, qəlbinin kövrəkliyidir. Yeri gəlmişkən, dekabrın 19-da cənab generalın 91 yaşı tamam olacaq. "Polis"in kollektivi bu münasibətlə onu təbrik edir, sağlam canla 100-ü haqlayın deyirik.*

Bir nəfərin barəsində sosial şəbəkədə rüsvayedici məlumatlar yayılacağı ilə hədələnərək 2 min manatının alınması barədə polisə məlumat daxil olub. **Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində hədə-qorxu ilə tələb etmədə şübhəli bilinən Ağdaş rayon sakini A.Azizovs müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Paytaxt sakini S.Dadaşovun bank hesabından 560 manatının oğurlanması barədə polisə məlumat daxil olub. **Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət-Axtarışı İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən paytaxt sakini T.Rəhimov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Binəqədi RPİ-nin 6-cı Polis Bölməsinə** Biləcəri qəsəbəsində yaşayan bir nəfərin bank hesabından 5 min manatının oğurlanması barədə məlumat daxil olub. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən Abşeron rayon sakini T.Əliyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Bakı şəhər sakini S.Səlimovun bank hesabından 1100 manatının qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumat daxil olub. **Səbail RPİ 9-cu Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən Bakı şəhər sakini O.Süleymanov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Füzuli rayon sakini olan bir nəfərin bank kartının qeyri-aşkar şəraitdə oğurlanması və hesabından 2500 manatının çıxarılması barədə polisə məlumat daxil olub. **Xaçmaz Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən Xaçmaz şəhər sakini O.Hüseynov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Dekabrın 6-da saat 12:00 radələrində Sabunçu qəsəbəsi ərazisində "Toyota" markalı avtomobildə sərnişinin sürücünü bıçaqla hədələyərək 30 manatını talaması barədə polisə məlumat daxil olub. **Sabunçu RPİ 12-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluq əməlində şübhəli bilinən Bakı şəhər sakini E.Tağıyev müəyyən olunaraq saxlanılıb.

# Daxili İşlər Nazirliyi Salyan "ASAN Xidmət" mərkəzində vakant olan vəzifələrə xidmətə qəbulla əlaqədar

# MÜSABİQƏ ELAN EDİR

Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Salyan "ASAN Xidmət" mərkəzi üzrə regional qrupda vakant olan 24 (iyirmi dörd) kiçik rəis heyəti vəzifəsinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən, yaşı 20-dən 30-dək, ailəli, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, Salyan, Neftçala və Biləsuvar rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq, ali təhsilli, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci il noyabrın 10-dan dekabrın 10-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***
***- təhsil haqqında sənədin əsli;***
***-əmək kitabçası (olanlar üçün).***

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonu:**
**(012) 590-64-41**

## STATİSTİKA

## Kriminal icmal

- Noyabrın 30-dan dekabrın 7-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 321, əvvəlki dövrlərdən bağlı qalan 150 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 493, o cümlədən borclu şəxs qismində axtarışda olan 356 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 14 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 15 nəfər ölüb, 10 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 138, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 28 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik